XALQ QƏZETİ 10 yanvar 2019-cu il, cümə axşamı

## Müstəqil mövqe

***Prezident İlham Əliyevin 27 dekabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" mühüm əhəmiyyət kəsb edən bir sənəddir. Xüsusilə, yollarda neqativ hadisələrin artdığı bir şəraitdə təhlükəsizliyin təmin olunması vacib məsələdir.***

# Yol hərəkətinin təhlükəsizliyinə dair mühüm proqram





Bu gün sosial mediaya nəzər saldıqda analoji hadisələr barədə xəbərlərin daha intensiv və geniş yayılmasının şahidi oluruq. Bu sənəd hazırlanarkən mən də öz təkliflərimi vermişdim. Sevindirici haldır ki, müəyyən qurumlar vasitəsilə etdiyim şərhlər Dövlət Proqramında öz əksini tapmışdır. Bəlli məsələdir ki, bu günə qədər yol hərəkəti təhlükəsizliyi barədə söhbət açılarkən ayrı-ayrı normativ sənədlərə istinad edilirdi.

Bu elə bir sənəddir ki, dövlətin bu sahəyə yanaşmasını müəyyən etməklə bərabər, həm də onu formalaşdırmaqda önəmlidir. Sənəd konkret olaraq ayrı-ayrı strukturların üzərinə düşən öhdəlikləri müəyyən edir ki, dünənə qədər mövcud olan bu məsələlər kölgədə qalırdı və ya həmin məsələlərə bir o qədər ciddi fikir verilmirdi. Məsələn, dövlət proqramında konkret olaraq göstərilir ki, yol-nəqliyyat hadisələrinin, xüsusilə də ölümlə və sağlamlığa zərər vurmaqla nəticələnən yol-nəqliyyat hadisələrinin sayının, habelə ölkə iqtisadiyyatına və ekologiyasına dəyən ziyanın azaldılması üçün zəruri tədbirlər görmək əsas amildir. Ekologiyadan söhbət gedirsə, ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin istismarı məsələsi önə çıxır. Dövlət proqramında buna dair bir neçə bənd var. Hətta orada tramvayların bərpası məsələsi də öz əksini tapıb. Orada göstərilir ki, dövlət proqramının qüvvədə olduğu müddətdə tramvayların istismarı ilə bağlı, tramvay xətlərinin bərpası ilə bağlı konkret təkliflər hazırlansın. Təbii ki, bunun üçün aidiyyəti üzrə qiymətləndirmələr aparılmalı, monitorinqlər keçirilməli və yol infrastrukturuna baxış təşkil olunmalı, nəticədə tramvayların bərpası ilə bağlı vahid bir məxrəcə gəlinməlidir.

Bu günə qədər biz ekspert olaraq bunun mümkünlüyü barədə danışırdıq.Təbii ki, bu fikrin opponentləri də var idi. Bəziləri bu işin mümkünsüz olduğunu bildirirdi. Amma dünya təcrübəsi göstərir ki, bu sahədə müəyyən işlər həyata keçirilir və bir sıra iri şəhərlərdə tramvay xətti var, tramvaylar işləyir. Burada təhlükəsizlik məsələsi öndə gedən amillərdəndir. Ən azından tramvay təhlükəsiz nəqliyyat vasitələrindən biri hesab olunur. Bu da sənədin məqsədlərində insan sağlamlığına vurulan zərərin minimuma endirilməsi kimi əksini tapıb. Digər tərəfdən, bu, ekoloji cəhətdən əlverişli nəqliyyat vasitəsidir. Deməli, buradan belə nəticəyə gəlmək olar ki, ən azı bu iki element dövlət proqramının məqsədləri ilə üst-üstə düşən məsələdir.

Digər bir amil yol hərəkəti sahəsində idarəetmənin təkmilləşdirilməsi və ya yol hərəkəti təhlükəzliyinin təşkil edilməsində maliyyə sisteminin yaradılmasıdır. Bir çox innovativ metodların tətbiq olunması bu işlərin görülməsinə mühüm töhfə verə bilər. Yəni faktiki olaraq bunları sadalamaqla qurtarmaq olmaz. Dövlət proqramının təhlükəsiz yol-hərəkət sisteminin yaradılması üçün nəzərdə tutulan məqsədlərin əldə olunması aspektinə nəzər salsaq, sözügedən proqramın 3-cü maddəsində bu kimi məsələlərin öz əksini tapdığını görə bilərik. Sonrakı maddədə dövlət proqramının əsas istiqamətlərində yol hərəkəti təhlükəzsizliyi sahəsində idarəetmə, təhlükəsiz yollar və yol hərəkətinin təşkili, təhlükəsiz nəqliyyat vasitələri və təhlükəsiz yol hərəkətinin iştirakçıları və qəza sonrası tədbirlər qeyd edilib. Burada əsas beş istiqamət göstərilir ki, burada yol hərəkətinin təmin olunması məsələsi, bu istiqamətlərdə həyata keçirilməsi nəzərdə tutulur. Bir sözlə, bu proqram kifayət qədər konseptual yanaşmanı açıq-aşkar nümayiş etdirən bir sənəddir.

7-ci maddədə proqramın həyata keçirilməsi üzrə tədbirlər planı göstərilib. Tədbirlər planında konkret olaraq ayrı-ayrı sahələr üzrə hansı strukturun bu məsələyə cavabdeh olduğu göstərilir. Konkret olaraq onun icra müddətini müəyyən edir. Bu, ən azı vahid şəkildə yol hərəkəti zamanı təhlükəsizliyin təmin olunmasına xidmət edən yanaşmadır.Yəni ayrı-ayrı strukturlar öhdəliklərinin nədən ibarət olduğunu bu tədbirlər planında görür. Nəticə etibarı ilə hər bir struktur bu dövlət planının da qüvvədə olduğu müddət ərzində hər bir bənd üzrə özünün iş planını ortaya qoymalıdır. Bu da həmin strukturların üzərində yeni ohdəliklərin, daha doğrusu, yol hərəkəti təhlükəziliyi ilə bağlı olan əvvəlki öhdəliklərin sistemləşdirilmiş, mərkəzləşdirilmiş şəkildə həyata keçirilməsini tələb edən bir yanaşmanın formalaşması zərurətini yaradır.

İctimai nəqliyyatın təkmil şəkildə qurulması, tutaq ki, avtomobil yolları barədə danışarkən geniş spektrli və respublikanın bütün regionlarını əhatə edəcək kontekstdə dövlət siyasətində iştirak edən və onun icrasını reallaşdıran ayrı-ayrı strukturlar bu məsələyə dair öz vahid mövqeyini ortaya qoymalıdırlar. Hər bir bəndə ayrı-ayrılıqda nəzər saldıqda görürük ki, burada hətta elə incə məsələlər var ki, indiyə kimi kölgədə qalır və müəyyən mənada maraqların toqquşmasına gətirib çıxarırdı. Misal üçün hansısa tikinti şirkəti hansısa layihəni həyata keçirərkən böyük bir ərazini hasarlayıb bəzi yerlərdə hətta səkiləri belə zəbt etməklə tikinti meydançasının ərazisini böyütmüş olurdu və təbii ki, bu, yolverilməz haldır. Baxmayaraq ki, bizim qanunvericilikdə bu məsələ xüsusilə öz əksini tapmışdır. Bəlkə də ola bilsin ki, aidiyyəti strukturlar buna lazımi nəzarəti həyata keçirə bilmirdilər. Artıq sözügedən tədbirlər planında bu kimi məsələlər xüsusilə göstərilir və nəticə etibarilə bu sahədə nəzarətin təkmil səkildə qurulmasına cavabdeh olan strukturlar müəyyən edilir.

Təbii ki, bir vətəndaş və yol hərəkətinin aktiv iştirakçısı olaraq bu proqramı çox müsbət dəyərləndirirəm və hesab edirəm ki, bu, qarşıya mühüm vəzifələr qoyur. Bu vəzifələr təbii ki, işlək mexanizmin ortaya qoyulmasını tələb edir. Ümidvaram ki, işlək mexanizm aidiyyəti strukturlar tərəfindən tətbiq ediləcək. Misal üçün, burada belə bir bənd var: yol hərəkəti təhlükəsizliyi ilə bağlı elmi-tədqiqat mərkəzinin yaradılması. Elm sahəsinin bir nümayəndəsi kimi, mən bu bəndə xüsusi olaraq diqqət yetirmək istərdim. Çünki elmi-tədqiqat mərkəzinin yaradılması bir çox strateji sənədlərin qəbul olunması və analitik işin həyata keçirilməsini tələb edir. Bu yalnız elmi-tədqiqat müstəvisində həyata keçirilə biləcək məsələdir. Tədbirlər planının həmin hissəsində bu kimi məsələlərə diqqət yetirilir. Misal üçün burada ekspert kimi, mənə çox maraqlıdır ki, yol hərəkəti təhlükəsizliyinin nəzəri-təcrübi məsələlərin sistemli və davamlı şəkildə araşdırılması məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan müvafiq ali təhsil müəssisəsinin nəzdində yol hərəkətinin təşkili və yol hərəkəti təhlükəsizliyi üzrə ekspertlər və elmi-tədqiqat qruplarının üzvlərindən ibarət ictimai şura fəaliyyət göstərəcəyi müvafiq elmi-tədqiqat müəssisə yaradılsın.

Təbii ki ekspertlərin bu prosesə cəlb olunması olduqca vacib məsələdir. Digər bir məqam yol hərəkəti ilə bağlı ictimai iştirakçılığın təmin edilməsidir ki, bu da vətəndaş cəmiyyəti üzərinə bir sıra öhdəliklər qoyur. Xüsusilə də ictimai nəzarətin təşkili bu prosesdə vətəndaşların, QHT-lərin, KİV-in, həmçinin həmkarlar ittifaqlarının və digər vətəndaş cəmiyyəti istitututlarının ayrı-ayrı nümayəndələr nəzərdə tutulur. Proqramın uğurla həyata keçirilməsi həm də vətəndaş cəmiyyətinin bu prosesdə fəal iştiraklını zəruri edir.

Yol hərəkəti qaydaları, yol infrastrukturu, şəhərsalma və yol hərəkəti təhkükəsizliyinin tələbləri kimi, vacib hesab etdiyimiz məsələlər bu proqramda öz əksini tapmış mühüm məqamlardır. Bu kimi məsələlərin proqramda əksini tapması isə onun aktuallığını şərtləndirir. İctimaiyyəti narahat edən bir sıra məsələlər də proqramda öz əksini tapır. Təbii ki, maarifləndirmə, məlumat kampaniyalarına xüsusi diqqət yetirilir. Belə ki, təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə yol hərəkəti təhlükəsizliyi ilə bağlı işlərin həyata keçirilməsi nəzərdə tutulur. Bundan başqa, gələcəkdə bizim yol infrastrukturu böyüyür, sürətli avtomobil parkı yenilənir. Bu dəyişiklik fonunda yol hərəkəti qaydalarına uyğun nəqliyyatın idarə olunması önə keçir. Avtomobil yollarında işıqlandırma sistemlərinin mövcud tələblərə və standartlara uyğun tətbiq edilməsi, bundan başqa, bir çox yeniliklərin, innovativ məhsulların həyata keçirilməsi, eyni zamanda, velosiped zolaqlarının və duracaqlarının yaradılması və astagedən nəqliyyat vasitələri üçün nəqliyyat zolağının təşkili və digər məsələlər sənəddə öz əksini tapıb. Bu məsələlərin həyata keçirilməsi müəyyən qurumlar üzərində öhdəlikləri müəyyən edir və inanıram ki, müvafiq strukturlar öhdəliklərinə düşən işləri layiqincə yerinə yetirəcəklər. Ölkədə yol hərəkəti təhlükəsizliyində çox ciddi irəliləyişlərin əldə olunması baş verəcəkdir və bunu statistik rəqəmlərdə aydın şəkildə görəcəyik. Yolların tez sıradan çıxması, iriqabaritli, ağırtonnajlı maşınların hərəkət təhlükəsizliyinə nəzarətin təşkil olunması olduqca vacib məsələdir. Belə ki, yeni yollar istifadəyə verilir amma ağıryüklü maşınlar həmin yollara ciddi ziyan vurur. Həmin məsələ də bu proqramda öz əksini tapır.

Texniki baxış ayrıca istiqamət olaraq dövlət proqramında qeyd olunur. Təbliğat və təşviqat işinin təşkili ayrı-ayrı strukturlar qarşısında bir sıra öhdəliklər qoyur. Ayrıca olaraq yollarda uşaqların təhlükəsizliyinin təmin olunması ilə bağlı məsələ də var. Ayrı-ayrı strukturlar var ki, onların yol nəqliyyat hadisələrində bu və ya digər formada iştirakı təmin olunur. Misal üçün sığorta şirkətləri və digər strukturlar. Onların da qarşısına öhdəliklər qoyulur.

***Azər ALLAHVERƏNOV,***
***yol hərəkətinin təhlükəsizliyi üzrə ekspert***